# Xocalının Şuşakənd kəndinə və Xocavəndin Hadrut qəsəbəsinə növbəti köç karvanı yola salınıb







İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam edir. Noyabrın 20-də respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Xocalının Şuşakənd kəndinə yola salınıb.

AZƏRTAC xəbər verir ki, Şuşakənd kəndinə bu mərhələdə 15 ailə köçürülür, 54 nəfər keçmiş məcburi köçkünün yurd həsrəti sona çatır. Köçürülmə prosesi Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində əlaqədar dövlət qurumlarının birgə fəaliyyəti ilə həyata keçirilir.

❖ ❖ ❖

Xocavəndin Hadrut qəsəbəsinə yola salınan 17 ailə olmaqla 63 nəfər doğma yurdlarına qovuşub. Onlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Hadruta köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat verməleri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək öz evlərində məskunlaşıblar.

Azərbaycan.- 2025.- 21 noyabr (№ 247).- S.5.